Səh. 2 Ziyalının dəvəquşu taktikası – Azər Musaoğlu

Səh. 5 Dünyaya örnək yapon uzunömürlülüyü – Afiq Muxtaroğlu

Səh. 5 Balıq, qu quşu və xərçəng – Esmira Ələkbərli

Səh. 6 Gürcüstanın ərzaq təchizatı və kənd təsərrüfatındakı problemləri – Səlahəddin Piriyev

Səh. 3 Müasirik, yoxsa düşüncəmizin əsiri? – Hacı Bəkiroğlu

Səh. 4 TƏHSİL, ELM VƏ GƏNCLƏR NAZİRLİYİNİN MALİYYƏLƏŞDİRİLMƏSİ 2025-Cİ İLDƏ 3 MİLYARD LARİYƏ YAXIN OLACAQ

Səh. 7 Ağa Məhəmməd şah Qacarın Tiflis şəhərinə hücumu – Aleksandre Orbeliani

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 OKTYABR
2024-CÜ İL
№ 18 (213)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## MSK SEÇKİLƏRDƏN SONRA PARLAMENTƏ KEÇƏN PARTİYALARIN DEPUTAT MANDATLARINI AÇIQLAYIB




Gürcüstan Mərkəzi Seçki Komissiyası seçkilərdən sonra parlamentə keçən partiyalar arasında deputat mandatlarını açıqlayıb.

Bu barədə Gürcüstan Mərkəzi Seçki Komissiyası məlumat yayıb.

Məlumata görə, Hakim “Gürcü Arzusu” (Xalqın Gücü ilə koalisiyada) – 89 mandat;

“Dəyişiklik Koalisiyası” (“Axali”, “Girçi-Daha Çox Azadlıq”, “Droa” partiyaları daxil olmaqla) – 19 mandat;

“Birlik - Milli Hərəkat” (“Vahid Milli Hərəkat”, “Aqmaşenebeli Strategiyası”, “Avropa Gürcüstanı” daxil olmaqla) – 16 mandat;

“Güclü Gürcüstan” (“Lelo”, “Xalq üçün”, “Vətəndaşlar”, “Azadlıq Meydanı” daxil olmaqla) – 14 mandat;

“Qaxaria Gürcüstan üçün” – 12 mandat qazanıb.

Qeyd edək ki, müxalifət partiyaları hazırda mandatlarından imtina edir və parlamentə daxil olmaq niyyətində deyillər. Lakin bu, hakim partiyanın işə başlamasına mane olmayacaq.

## GÜRCÜSTANIN MƏDƏNİYYƏT VƏ İDMAN NAZİRLİYİ İKİ QURUMA BÖLÜNÜR




Gürcüstanın Mədəniyyət və İdman nazirliyi iki quruma bölünəcək. Bunu Gürcüstanın Baş naziri İrakli Kobaxidze bəyan edib.

*“Seçkilərdən dərhal sonra biz qanunvericilikdə dəyişikliklərə başlayacağıq ki, bu da nazirliyin bölünməsini nəzərdə tutur. Mədəniyyət Nazirliyi ayrıca institut kimi formalaşdırılacaq və yeni İdman Nazirliyi yaradılacaq”,* – deyə İrakli Kobaxidze bildirib.

Onun sözlərinə görə, gələcəkdə İdman Nazirliyinə Şalva Qoqoladze rəhbərlik edəcək. Nazirlik bölünənə qədər isə Qoqoladze nazir müavini vəzifəsində olacaq.

## İRAKLİ KOBAXİDZE RƏCƏB TAYYİB ƏRDOĞANI CÜMHURİYYƏT BAYRAMI MÜNASİBƏTİLƏ TƏBRİK EDİB



Gürcüstan Baş naziri İrakli Kobaxidze Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı Türkiyə Cümhuriyyətinin 101-ci ildönümü münasibətilə təbrik edib.

Hökumət başçısının təbrik məktubunda qeyd edilib ki, son illər Gürcüstan və Türkiyə arasında ikitərəfli münasibətlər dinamik inkişaf edir, bu da regionda yeni imkanların yaradılmasına və əhəmiyyətli layihələrin həyata keçirilməsinə töhfə verir.

*“Cənab Prezident, Türkiyə Cümhuriyyətinin elan edilməsinin 101-ci ildönümü münasibətilə Sizi ürəkdən təbrik edir, Sizə və qardaş türk xalqına sülh və firavanlıq arzulayıram. Məmnunluq hissi ilə qeyd etmək istərdim ki, son illər Gürcüstan və Türkiyə arasında ikitərəfli münasibətlər dinamik inkişaf edir, bu da regionda yeni imkanların yaradılmasına, strateji əhəmiyyətli layihələrin həyata keçirilməsinə töhfə verir. Mən Türkiyənin Gürcüstanın ərazi bütövlüyü və suverenliyinə, eləcə də Avro-Atlantik məkana qoşulmaq istəyinə göstərdiyi sarsılmaz dəstəyə görə minnətdaram. Fürsətdən istifadə edərək, Gürcüstan hökumətinin Gürcüstan və Türkiyə arasında nümunəvi strateji tərəfdaşlığı dərinləşdirməyə hazır olduğunu təsdiq edirəm. Hesab edirəm ki, regionda sülhün və sabitliyin təmin olunması üçün ölkələrimizin səyləri vacibdir. Bizim ikitərəfli və çoxtərəfli təşəbbüslərimiz regionun davamlı iqtisadi inkişafı və sabitliyi üçün mühüm zəmin yaradır”,* – təbrik məktubunda deyilir.

## TÜRKİYƏ CÜMHURİYYƏTİNİN YARANMASININ 101-Cİ İLDÖNÜMÜ TBİLİSİDƏ QEYD OLUNUB




Oktyabrın 29-da Tbilisidə Türkiyə Cümhuriyyətinin yaranmasının 101-ci ildönümü münasibətilə təntənəli tədbir keçirilib.

Cümhuriyyət bayramı tədbirində Gürcüstanın dövlət və hökumət rəsmiləri, parlamentin deputatları, diplomatik korpusun təmsilçiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın videomüraciəti təqdim olunub.

Türkiyənin Gürcüstandakı səfiri Ali Kaan Orbay çıxış edərək ölkəsinin dövlətçilik tarixi, ötən illər ərzində əldə olunan uğurlar barədə məlumat verib.

Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili dost Türkiyə xalqını bayram münasibətilə təbrik edib, həmçinin Gürcüstan ilə Türkiyə arasında münasibətlərin inkişaf perspektivləri barədə danışıb.



# ZİYALININ DƏVƏQUŞU TAKTİKASI

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Uçmaq feilini insanlar üçün də işlədə bildiyimiz bir dövrdə qanadlar o qədər də əhəmiyyət daşımır. Məsələn, qaranquş Afrikadan uçub gəldiyi kimi, insan da təyyarəylə Tiflisdən Bakıya uçub gedə bilir. Bir də var, quş olasan, uçmaq üçün orqanın, yəni qanadın ola, amma uça bilməyəsən. Məsələn, dəvəquşu kimi...

Deməli, qanad təkcə uçmaq üçün deyilmiş, həm də uçmamaq üçünmüş, qanad həm də himəyə etmək, qorumaq, sığınacaq olmaq üçünmüş. Axı dilimizdə qanad gərmək (himayəsi altına almaq), qol-qanad vermək (ruhlandırmaq), qanadı altına almaq (qorumaq), qanadı altına sığınmaq (qorunmaq üçün kiminsə himayəsinə keçmək), qanadı altında böyümək (himayə və qayğı ilə böyümək), qanadlandırmaq (ürəkləndirmək, cürətləndirmək) kimi ifadələr var. Dilimizdə həm də qanadı qırılmaq (köməksiz qalmaq), qol-qanadını qırmaq (köməksiz, kimsəsiz qoymaq), qol-qanadı sınıb yanına düşmək (sarsılmaq) kimi ifadələr də var. Bu qanadlı sözləri çox uçurtmadan keçirəm sözümün mustafasına.

Nə yaxşı ki Allah dəvəyə qanad verməyib, nə yaxşı ki dəvəquşu uça bilmir, yoxsa uçurmadıqları dam-daş qoymazdılar...

Son zamanlar ziyalı ifadəsi dəvəquşunun qanadını xatırladır. Amma dəvəquşunun funksiyası uçmaq olmayan, lakin öz yumurtasını, balalarını qorumaq, himayə etmək üçün istifadə etdiyi qanadlarından fərqli olaraq ziyalı nə qanad gərir, nə qol-qanad verir, nə qanadı altına alır, nə qanadlandırır. Ziyalı ya dəvəquşu kimi başını quma soxub gizlənir, ya da fəaliyyəti konyunkturadan ibarət olur, azad uçmaq istəyənlərin qol-qanadını qırır, qəfəsə saldırır və s. Meydan qalır ziyanlılara, diletantlara, konyunkturaçılara, peşekərlərə (Borçalıda yük atına deyilir)...

Dəvəquşuna dedilər: qaç, dedi: quşam, dedilər: uç, dedi: dəvəyəm. Ziyalı da eşitmək lazım gələndə kar oldu, görmək lazım gələndə kor oldu, danışmaq lazım gələndə lal oldu, susdu. Ziyalı üçün susmaq qızıl deyil, razılıq əlamətidir. Nə qədər ki, ziyalı danışmaq, fikir bildirmək, mövqe sərgiləmək əvəzinə dəvəquşu taktikasından istifadə edəcək – ziyanlı olacaq. Nə qədər ki, ziyalı yalan danışacaq, yalançıya şahidlik edəcək, haqsızın tərəfində olacaq – ziyanlı olacaq. Nə qədər ki, ziyalı işini itirməkdən qorxacaq, qohumlarının işdən qovulmasından qorxacaq – ziyanlı olacaq. Nə qədər ki, ziyalı yaltaqlanacaq, yarınacaq – ziyanlı olacaq. Nə qədər ki, ziyalı beyni ilə yox, mədəsi ilə düşünəcək, cibləri ilə arzulayacaq – ziyanlı olacaq. Nə qədər ki, ziyalı zorla ərə verilmiş azyaşlının toyunda sağlıq deyib, qol-qanad açıb oynayacaq – ziyanlı olacaq. Nə qədər ki, ziyalı qaçırılmış qızın ailəsini razı salmaq üçün vasitəçilik edəcək, barışıqlıq aparacaq – ziyanlı olacaq. Nə qədər ki, ziyalı hakimiyyətin ağzı olacaq, qulağı olacaq, hakimiyyəti tərifləyəcək, seçkiləri saxtalaşdıracaq – ziyanlı olacaq. Nə qədər ki, ziyalı pula, vəzifəyə görə vicdanını satacaq – ziyanlı olacaq... Və bu ziyan əsl ziyalıların qurduğu bünövrəni darmadağın edəcək, uçuracaq.

Uçmaq feili həm də yıxılmaq, düşmək, dağılmaq mənasında işlədilir. Dəvəquşu taktikasından istifadə edərək başlarını yerə soxub guya gizlənən ziyalılar funksiyasız qanadları ilə feilin məhz bu mənasında uç(ur)urlar.

# GÜRCÜSTAN MACARISTANLA ƏMƏKDAŞLIĞI DƏRİNLƏŞDİRİR




Gürcüstan və Macarıstan ticari-iqtisadi əməkdaşlığın dərinləşdirilməsi istiqamətində fəal çalışacaq. Bu barədə Gürcüstan Baş nazirinin birinci müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili macarıstanlı həmkarı Marton Nad ilə görüşdən sonra bildirib.

Məlumata görə, Gürcüstan və Macarıstan arasında ticari-iqtisadi əlaqələr, onların gələcək inkişaf perspektivləri və bu istiqamətdə görüləcək işlər iki ölkənin iqtisadiyyat nazirlərinin görüşünün əsas mövzusu olub.

*"Gürcüstan və Macarıstan arasında bir çox sahələrdə ticari-iqtisadi tərəfdaşlığın dərinləşdirilməsi üçün ciddi potensial var. Biz bu istiqamətdə, o cümlədən hökumətlərarası komissiya çərçivəsində fəal işləyəcəyik",* – Davitaşvili deyib.

Qeyd olunub ki, komissiyanın növbəti iclası Tbilisidə keçiriləcək və iclas çərçivəsində ticarət və investisiya, turizm, kənd təsərrüfatı, ətraf mühitin mühafizəsi və energetika, nəqliyyat, rabitə və innovasiya, təhsil və elm, mədəniyyət, Gürcüstan və Aİ əlaqələri və s. sahələrdə əməkdaşlığın dərinləşdirilməsi perspektivləri müzakirə olunacaq.

*"Qeyd etmək istərdim ki, iqtisadi əlaqələrimiz artır, o cümlədən bu ilin ilk doqquz ayının məlumatlarına görə, ticarət dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 20 % artaraq 64 milyon ABŞ dolları təşkil edib",* – gürcü nazir söyləyib.

Bundan əlavə, Gürcüstan Baş nazirinin birinci müavini vurğulayıb ki, ölkələr arasında 2024-cü ildə imzalanmış investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında saziş iki ölkənin investisiya potensialının reallaşdırılmasında mühüm rol oynayacaq.

Tərəflər həmçinin Qara dənizin dibi ilə kabel xətti çəkilməsi layihəsinin gedişatını müzakirə ediblər. Qeyd olunub ki, bu, həm də Avropanın enerji sisteminin təhlükəsizliyi baxımından böyük infrastruktur layihəsidir: o, Gürcüstan və Avropanın elektrik enerjisi sistemlərini birləşdirməlidir. Tərəflər razılaşıblar ki, onun həyata keçirilməsi istiqamətində mövcud sıx əməkdaşlıq davam etdiriləcək.

Xatırladaq ki, 2022-ci ilin dekabrında dörd ölkənin – Gürcüstan, Macarıstan, Rumıniya və Azərbaycan hökumətləri Gürcüstan və Azərbaycandan elektrik enerjisinin Avropaya ötürüləcəyi kabel xəttinin çəkilməsi haqqında saziş imzalayıblar. Layihə Avropa və Cənubi Qafqaz regionunda enerji təhlükəsizliyini gücləndirmək, bərpa olunan enerji sektorunu inkişaf etdirmək və tranzit imkanlarını artırmaq məqsədi daşıyır.

Avropa İttifaqı Qara dənizin dibi ilə keçəcək sualtı kabel layihəsinə 2,3 milyard avro ayırmaq niyyətindədir. Dünya Bankı isə Qara dənizin dibinin ətraflı tədqiqi üçün Gürcüstana əlavə 75 milyon ABŞ dolları ayıracağına söz verib.

*Mənbə: report.az*

# SEÇKİNİN BAZARA ÇEVRİLMƏSİ



Təxminən 7-8 yaşlarımda idim. Rəhmətlik nənəm bazardan gəlmişdi. Tez qalxıb yanına qaçdım ki, baxım nənəm bizə nə alıb. Yazıq arvad köksünü ötürüb – "Nənən sənə qurban olsun, seçkilərə görə caamat qarışmışdı bir-birinə, heç nə ala bilmədim" – dedi. İlk dəfə seçki sözünü o zaman eşitmişdim. Bu termin mənə gündəlik istifadə edilən adi sözlərdən biri kimi gəlmişdi, amma cavabını tapa bilmədiyim suallarım var idi. Bu seçki nə olan şey idi ki, caamatı belə əl-ayağa salırdı? Başladım araşdırmağa; evdə, küçədə, məktəbdə, xəbərlərdə və s. – harada seçkidən danışılsa qulaq asmağa, sual vermə imkanı tapanda suallar verməyə. Seçki nədir? Orada nə edirlər? Səs necə verilir? Səsinizimi yazırlar?..

Həmin ərəfələrdə sorğu keçirilirdi. Qapımızı əllərində kağız-qələm olan gənc qızla oğlan döydü. Evdəkilərə sual verdilər ki, ailədə neçə nəfərsiniz və kimə səs verəcəksiniz? Elə yadımdadır, yanlarına gedib "mənim də səsim var, olar mən də səs verim" dedim. Gülümsəyib "sən hələ balacasan, 18 yaşın olsun, əlbəttə, səs verə bilərsən, səs verərək ölkə başçısını seçirlər" dedilər. Artıq başa düşmüşdüm ki, seçki prosesi bir şəxsin və ya qrupun seçilməsi prosesi deməkdir. O gündən sonra hər il daha çox şey öyrənməyə başladım. Beləcə, xəbərlərə, qəzetlərə, aparılan sorğulara həvəsim oyandı. Araşdırdıqca siyasətin necə qarışıq, hər adamın ağlının almayacağı bir şey olduğunu dərk etdim. Əsas məsələ demokratik ölkədə yaşadığımızı zənn etdiyimi öyrəndim. Səslərin xalqın yox, pulların olduğunu öyrəndim, 15-20 lariyə səslərin satıla biləcəyinin mümkün olduğunu, seçkilərin nəticələrinin xalqı yox, kresloları sevindirdiyini öyrəndim...

Hər sual veriləndə ki, kimə səs verəcəksiniz, qarşılığında "əşi, fərqi nədir, kim olur olsun, təki pul versinlər" sözü qədər canımı yandıran heç nə olmadı. Danışılanları eşitdikcə bilmirsən güləsən, ya ağlayasan. Biri deyir "Rusiya sərhəddə durur, 41 qələbə qazanmasa dava qalxacaq", o biri deyir "5 qazansa urus dağı-kəsəyi başımıza yağdıracaq", biri deyir "41 qazansa Avropanı bağlayacaq, digəri ona qarşı çıxır ki, neynirsən Avropanı, gedib ursetdə işləyərsən"... Ay nə bilim un, şam, makaron ehtiyatı görənə bax, qurbanlar deyənə bax. Kresloda oturanlar heç bu qədər mübahisə aparmır, nəinki bazardakı xalalar, çayxanadakı əmilər, dayılar. Ağızdan-ağıza dolaşan mənbəyi bəlli olmayan xəbərlərə görə seçimlərini yanlış edən yüzlərlə insan oldu. Seçki günü maşınlar küçədə yoldan qızıl toplayırmış kimi insanları toplayıb, səs verməyə aparırdılar. "Mənim səsimlə nə dəyişəsidir" deyib, ovucuna 15-20 lari qoyublar deyə barmaqla göstərilən rəqəmi işarələdilər. Bu gün pulu düşünüb səslərini satanlar sabahı, övladlarının gələcəyini hesablamadılar...

Qanuna görə, Gürcüstanda seçki prosesi müstəqil seçki komissiyaları tərəfindən idarə olunur. Seçkilərin ədalətli və şəffaf keçirilməsini təmin etmək üçün beynəlxalq müşahidəçilər də iştirak etməlidir. Sağ olsunlar, Mərkəzi Seçki Komissiyasının üzvləri heç kimi əziyyətə salmadılar. Xalqın əvəzinə hər şeyi etdilər, bülletendə yazılanı başa düşməyən hər kəsə lazımi qrafanı gösdərdilər ki, buranı rəngləyin. Seçki məntəqələrində hakim partiyaya işləyənlərin qohumları da otururdular. Aydındır ki, qohumu qələbə qazansa ona da vəzifə verəcək, buna görə də kimsə nəyisə başa düşməyəndə yaxınlaşıb kabinədə barmaqla haranı rəngləmək lazım olduğunu göstərirdi. Bu, bir məntəqədə sadəcə mənim gördüyüm qanun pozuntusu idi. Düşünün 3111 məntəqədən neçəsində bu və bunun kimi hallar oldu. Bir sözlə, Gürcüstanda saxtakarlıqla, azad seçim haqqı olmadan seçkilər keçirildi. Utanc verici hadisə odur ki, ən çox qarmaqarışıqlıq biz azərbaycanlıların, etnik azlıqların yaşadığı ərazilərdə baş verdi. İndi də "hər şey tatarlara görə oldu" kimi alçaldıcı sözlərə məruz qalırıq. Elə də doğma Vətənimizdə bizlərə ögey baxırdılar. İndi lap görəsi gözləri yoxdur.

Bir neçə gündür universitetdə azərbaycanlı tələbələrin toplaşıb danışdıqlarını görən gürcü tələbələrin öz aralarındakı söhbətlərini eşitməmək üçün qulaqlarımı bağlamaq istəyirəm. Amma əlimdən heç nə gəlmir...

Dayanıqlı inkişaf yolunu seçən dövlətlər və xalqlar üçün demokratiya ən vacib alətlərdən biridir. Demokratik sistemin mövcudluğu və inkişafı isə azad, şəffaf, ədalətli və xalqın iradəsini ifadə edən seçkilər olmadan mümkün deyil!

**Aytən FƏTULLAYEVA**

*Tbilisi Dövlət Universitetinin dəqiq və təbiət elmləri fakültəsinin 2-ci kurs tələbəsi*

# MÜASİRİK, YOXSA DÜŞÜNCƏMİZİN ƏSİRİ?



**Hacı Bəkiroğlu**

hacihaciyev@hotmail.com

Tarixin hər bir dövründə yaşayan insan üçün öz dövrü, zamanı ən müasir zamandır. Çünki o zaman özündən öncəki dövrlərə nisbətən daha modern bir dövr hesab olunur. Son zamanlarda cəmiyyətimizdə gördüyüm bir çox hadisə məndə bu yazını yazmaq düşüncəsini oyatdı. Bu gün bizin dövrün insanları isə müasirliyi tam başqa məqsədlərlə istifadə edirlər. Bəli, bizim dövrümüz də bizə görə müasir dövrdür, keçmiş dövrlərə görə ən inkişaf etmiş çağdır. Əlbəttə, zamanla ayaqlaşıb müasir olmaq lazımdır. Elmlə, irfanla, ədəblə, əxlaqla müasirləşmək lazımdır. Digər insanları, inancları, əqidələri xor görmək, onları aşağılayaraq özünü üstün tutmaq müasirlik deyil. Müasirlik digərlərinin həyat tərzinə, dini inancına, mədəniyyətinə hörmət göstərərək öz həyat tərzini də yüksəltməkdir. Bu gün cəmiyyətimizdə müasirlik sözü dini inanclardan uzaqlaşaraq soyunmaq, içki məclislərində zaman keçirmək, qumarxanalarda ömür sürmək kimi qəbul edilir.

Yuxarıda da vurğuladığım kimi, müasirlik elmlə, inkişafla irəli getməkdir. Müasirlik ictimai yerlərdə, camaat içərisində utanmadan, arlanmadan bəzi xanımların bədən üzvlərini göstərərək buram silikonludur, oramı aldırmaq istəyirəm, filan yerimi şişirtmək istəyirəmlə olmur. Bəziləri də islam dininə mənsub olan dindarları xor görərək, ibadətləri və bəzi dini ritualları xor görərək gerilik zənn edirlər. Ancaq oxusalar görərlər ki, elə islamın müqəddəs kitabı olan Quranın nazil olan ilk ayəsi oxumağı əmr edir, bir çox ayəsində insanı düşünməyə, ağlını istifadə etməyə çağırır. Yəhudilərin başlarına qoyduqları kipa adlı geyimi görən kimsə səsini belə çıxarmaz, amma müsəlmanların təkkə və ya fəs adlanan papağı geyinənlərə gerilik kimi baxırlar. Özünü müasir adlandıran və ya müasir baxışlı insan anlamalıdır ki, bu, hər hansı bir dinin nümayəndəsi olursa olsun onun simvolik bir geyimidir və ona onu xor görmə haqqını vermir.

Bir çox sosial media kanallarında və ya səhifələrində də namaz formasını və ya hər hansı bir dini ayini anladan videolar gördükdə başlayırlar ki, dünyada filan iş görülür, müsəlmanlarsa bununla məşğuldur. Heç başqa dinin dindarlarının nə işlə məşğul olduğunu görən yoxdur. Digər dinlərin nümayəndələri öz dindarlarını görəndə ona necə hörmətlə, ehtiramla yanaşdığını görmürsünüzmü? Heç bir fizikadan anlamayan bir fiziklə, riyaziyyatdan anlamayan bir riyaziyyatçı ilə mübahisə etmir, amma içkisindən, qumarından qalmayan hər kəs dini mövzuda başlayır ilahiyyatçı ilə mübahisə etməyə. Bilmirsən, bunların dinlə olan ədavəti nədir. Ancaq başlarına bir fəlakət gələndə başlayırlar dindar bir adamın axtarışına çıxmağa, dini mövzularda məsləhətlər almağa. Mən burada kiminsə tərəfini tutmağa çalışmıram. Əlbəttə, bir dindar olsa belə o da digər elmlərə bələd olmalıdır.

Müasirlik deyilincə biz orta məktəbi yarıda qoyub evlilik arxasınca düşməyi, hələ yetkinlik çağına çatmamış övladlarımızı sükan arxasına oturdub təhlükələr yaratmağı, erkən yaşda içki və siqaretə başlamağı anlayırıq; örtülü geyinən qızlarımızı içəri salıb, o paltarını çıxarıb, açıq-saçıq geyindirməyi, öz dilimizə biganə qalaraq ala-yarımçıq bildiyimiz rus və ya ingilis dilində danışmağa çalışarkən özümüzü biabır etməyi anlayırıq. Bax, bunun üçün də biz müasir ola bilmirik, ancaq bizi fəlakətə aparan səhv düşüncələrimizin əsiri oluruq.

Görəsən biz nə zaman müasirliyin sinif otaqlarında söz atmaqla deyil, dərs oxumaqla, kompüter arxasında oyun oynamaqla deyil, məlumat axtarmaqla, zamanını qumarxanada deyil, kitabxanada keçirməklə əldə olunduğunu an-

## TƏHSİL, ELM VƏ GƏNCLƏR NAZİRLİYİNİN MALİYYƏLƏŞDİRİLMƏSİ 2025-Cİ İLDƏ 3 MİLYARD LARİYƏ YAXIN OLACAQ




Parlamentin Təhsil, Elm və Gənclərin işi üzrə Komitəsi 3 oktyabrda "Gürcüstanın 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsini müzakirə edib.

Layihəyə əsasən, 2025-ci ildə Təhsil, Elm və Gənclər Nazirliyi üçün nəzərdə tutulmuş maliyyə 2 milyard 885 milyon lari təşkil edəcək. Bu, 2024-cü ildə qurum üçün ayrılmış vəsaitdən 377 milyon lari çoxdur.

**Nəzərdə tutulmuş məbləğ əsasən sonrakı proqramların həyata keçirilməsinə yönləndirilib:**

***Məktəbəqədər və ümumi təhsil üçün*** – 1808,3 milyon lari. Bu ötən il təsdiqlənmiş məbləğ ilə müqayisədə 233,3 milyon lari çoxdur. Həmin məbləğ çərçivəsində cari ilin iyulundan ictimai məktəb müəllimlərinin artırılmış əməkhaqqının bütün il ərzində maliyyələşdirilməsi də nəzərdə tutulub.

Proqram çərçivəsində ictimai məktəblərin kompüter texnikası və laboratoriyalarla təchiz edilməsi üçün 70,0 milyon lari nəzərdə tutulub. Həmçinin mandatur və ictimai məktəblərin inzibati-texniki heyətinin əməkhaqqının artırılması da proqrama daxildir.

***Peşə təhsili üçün*** – 144 milyon lari.

***Ali təhsil üçün*** – 171,3 milyon lari.

***Alimlərə və elmi araşdırmalara dəstək üçün*** – 86,1 milyon lari.

***İnklüziv təhsil üçün*** – 79,5 milyon lari.

***İnfrastrukturun inkişafı üçün*** – 490 milyon lari. Həmçinin ümumtəhsil müəssisələri infrastrukturunun inkişafı üçün – 395 milyon laridən çox (Gürcüstanın Regional İnkişaf və İnfrastruktur Nazirliyinin büdcəsində nəzərdə tutulmuş məbləğ ilə yanaşı 561 milyon laridən artıq ayrılıb).

***Peşə təhsili müəssisələri infrastrukturunun inkişafı üçün*** – 66 milyon lari (Həmçinin "Peşə təhsili I (KFW) proqramı və daha yaxşı işlə təmin etmə sektorunun inkişaf proqramı üçün müasir bacarıqlar layihəsi çərçivəsində (ADB) müəyyən edilmiş vəsaitlər).

***Ali təhsil və elmi müəssisələrin infrastrukturunun inkişafı üçün*** – 15 milyon lari.

***Gənclərə dəstək üçün*** – 13,3 milyon lari vəsair ayrılıb.

*"Təhsil və elm istiqamətində maliyyələşdirmə 370 milyon laridən çox artırılıb, bunun çərçivəsində ictimai məktəblərin maliyyələşdirilməsinə əlavə 200 milyon lari yönləndiriləcək ki, cari ilin iyulundan müəllimlərin artırılmış əməkhaqlarını tam əhatə edəcək.*

*İctimai məktəblərin inzibati heyətinin və mandaturun əməkhaqqının 10 % artırılması nəzərdə tutulub. İctimai məktəblərin tikinti və bərpası üçün 560 milyon laridən çox, uşaq bağçalarının tikinti və bərpası üçün isə 180 milyon laridən çox məbləğ ayrılıb. Bundan əlavə, bələdiyyələrin artırılmış gəlirləri çərçivəsində uşaq bağçası əməkdaşlarının əməkhaqqının artırılması mümkün olacaq"* – büdcə layihəsində qeyd olunub.

Məsələ ilə bağlı Təhsil Komitəsinin iclasında maliyyə nazirinin birinci müavini Giorgi Kakauridze çıxış edib və deputatlar onu dəstəkləyiblər.

*"Biz həmişə iqtisadiyyatın nə qədər artdığını müqayisə edirik və maliyyələşdirmə elə həyata keçirilir, lakin bir qayda olaraq, təhsil və səhiyyə iqtisadi artımdan daha çox resurs sərf olunan iki qurumdur. Həmçinin məktəbəqədər və ümumi təhsil üçün 1 milyard 808 milyon lari nəzərdə tutulub, 233 milyon lari artırılıb və bu məbləğin böyük qismi bu il iyuldan artırılmış əməkhaqlarının maliyyələşdirilməsinə sərf olunacaq. Bildiyiniz kimi, ilin ortasında kifayət qədər böyük artım oldu, buna görə də qismən əvvəlki dövrə bölünmüşdür. Gələn il isə tam maliyyələşdirmə, eləcə də gələn il məktəbin inzibati-texniki heyətinin, mandaturların əməkhaqqının artırılması nəzərdə tutulub.*

*...Məktəblərin tibbi heyətinin əməkhaqları da artırılacaq. Əlbəttə, bir dəfəyə 500 və ya 600 larilik artım olmayacaq, mərhələli şəkildə artırılacaq. Bizim bu siyasətimiz yalnız birillik deyil və daimidir, artım siyasəti bağçalarda olduğu kimi, hər il olacaq"* – maliyyə nazirinin birinci müavini bildirib.

2025-ci ilin büdcəsinin ilkin versiyasının müzakirəsi parlamentin sahə komitələrində davam etdiriləcək. Orada qeyd olunan təklif və ya fikirləri nəzərə almaqla hökumət parlamentə 2025-ci il büdcəsinin yekun versiyasını dekabrda təqdim edəcək. Gələn ilin büdcəsini artıq yeni çağırış parlamenti təsdiq edəcək.

## PEŞƏ TƏHSİLİ MÜƏLLİMİNİN 6 STANDARTI



Peşə təhsili müəllimləri üçün 6 standart müəyyən edilib ki, hər biri öz növbəsində müəllimdən dəqiqlik və kompetensiyalı olmağı tələb edir, standart ümumi pedaqoji fəaliyyətin nədən ibarət olduğunu təsvir edir.

**Peşə təhsili müəlliminin 6 peşə standartı aşağıdakılardır:**

**Standart 1.** Analiz və planlaşdırma – sahə inkişafının yaxın tendensiyalarının, yenilənmiş bilik və texnologiyaların, həmçinin yeni tədris metodologiyalarının, peşə təhsili tələbələri/dinləyicilərinin fərdi ehtiyaclarının analizi əsasında, həmkarlar ilə əməkdaşlıqla müvafiq tənzimləyici aktların tələblərini nəzərə almaqla təhsil prosesinin planlaşdırılması;

**Standart 2.** Təhsil mühitinin yaradılması – təhlükəsiz, pozitiv və peşə təhsili tələbəsinə/dinləyiciyə dəstək göstərməyə yönləndirilmiş inklüziv təhsil prosesini təmin etmək və təhsil nəticələrinə nail olmaq üçün təhsil mühitinin yaradılması;

**Standart 3.** Təhsil prosesinin idarəedilməsi – peşə təhsili tələbəsi/dinləyicisinə istiqamətlənmiş təhsil prosesinin idarəedilməsi təhsil planı və nəticələrinə uyğun olaraq müasir, rəngarəng metodların, texnologiya və təhsil resurslarından istifadə etməklə olmalıdır;

**Standart 4.** Peşə təhsili tələbəsi/dinləyicisinin nailiyyətlərinin qiymətləndirilməsi – proqram və təhsil nəticələrinin müvafiq qiymətləndirilmə vasitələrinin seçilməsi, yaradılması/adaptasiyası və istifadəsi; Peşə təhsili tələbəsi/dinləyicisinin qiymətləndirilmə nəticələrinin analizi, lazım olduğu halda onların fərdi ehtiyaclarını nəzərə almaqla qarşılıq göstərmək;

**Standart 5.** Etik və effektiv iş münasibətlərinin formalaşması – peşə təhsili tələbələri/dinləyiciləri, həmkarları və başqa maraqlanan tərəflər ilə əməkdaşlıqla işgüzar, etik, effektiv münasibətlərin idarəedilməsi;

**Standart 6.** Şəxsi peşəkar inkişafın qayğısına qalmaq – peşə ilə bağlı irəli sürülmüş tələblər və şəxsi fəaliyyətlərin analizi əsasında davamlı peşə inkişafının qayğısına qalmaq.

## XÜSUSİ MÜƏLLİMİN DƏRS QRAFİKİ FƏRQLİDİRMİ?



Müəllim və xüsusi müəllimin tam və yarı iş qrafiki fərqlidir, ya yox? Neçə saat tam qrafikdən artıq hesab olunur? – Bu detallar ictimai məktəb müəllimlərinin əməkhaqqının minimal miqdarı və şərtlərinin müəyyən edilməsi haqqında qanunda yazılıb:

ა) Yarı qrafik – müəllimin 36 saatdan az iş həftəsini nəzərdə tutur. Bunun tərkibinə həftədə 18 saatdan az dərs daxildir;

ბ) Tam qrafik – müəllimin 36 saatlıq iş həftəsini nəzərdə tutur. Bunun tərkibinə həftədə 18 saat dərs daxildir;

გ) Tam qrafikdən artıq – müəllimin 40 saatlıq iş həftəsini nəzərdə tutur. Bunun tərkibinə həftədə 19 və ya 25 saat dərs daxildir;

დ) Xüsusi müəllimin tam iş qrafiki – xüsusi müəllimin 36 saatlıq iş həftəsini nəzərdə tutur;

ე) Xüsusi müəllimin yarı iş qrafiki – xüsusi müəllimin 36 saatdan az iş həftəsini nəzərdə tutur.

*Səhifədəki məlumatlar "edu.aris.ge", "etaloni.ge" saytlarından götürülüb.*

*Gürcü dilindən tərcümə etdi Aynurə ƏLİYEVA*

# DÜNYAYA ÖRNƏK YAPON UZUNÖMÜRLÜLÜYÜ



Günü-gündən qəddarlaşan dünyamızda uzun ömür yaşamağa dəyərmi? Burasına doğru-dürüst cavab verə bilməyəcəyimi bəri başdan söyləyim ki, sonra məni suçlu tutmayasınız.

Oradan başlayım ki, dünyada uzunömürlülüyün bir Yaponiya istisnası, bir yapon sirri var. Bunun nədən qaynaqlandığına dair bir-iki qənaətimi bir az sonra verməyi düşünürəm. Ona qədərsə, bu il Yaponiya tarixində bir ilk yaşandığını qulluğunuza yetirim. Belə ki, ölkədə yaşı 100-dən yuxarı insanların sayı 95 min nəfəri keçib. Yaşı 100-dən yuxarı əhalinin sayı ardıcıl 54 ildir ki, artır.

Keçən ilki məlumatlarla müqayisədə yaşı 100-ü keçənlərin sayında 2 min 980 artım qeydə alınıb. Orasını deyim ki, yaşı 100-dən yuxarı olanların 83 min 958 nəfərinin qadın, 11 min 161 nəfərinin kişi olduğu müəyyən edilib. Bu statistika uzunömürlü qadınların sayının kişilərə nisbətən yeddi dəfədən çox olduğunu təsdiqləyir. Yəni hesab qadınların xeyrinə 7:1-dir.

Yaponiya hökuməti yaşlı vətəndaşlarının rahat yaşamağa davam etmələri üçün tibbi xidmət, tibb bacısı xidməti və sosial rifah xidmətlərini artırmağa çalışacağını da bəyan edib. Al, bu da sənə yapon möcüzəsindən bir örnək.

Yaponiyada bir əsrdən çox ömür sürənlərlə bağlı əhali məlumatları ilk dəfə 1963-cü ildə qeydə alınmağa başlayıb.

Təxminən 125 milyon əhalisi olan Yaponiya uzunömürlülərinin çoxluğu ilə dünyaya meydan oxuyur. Dünyanın ən yaşlı insanı 116 yaşlı İtooka Tomiko da yapondur.

Yaponların bu göstəriciyə nail olmalarının xüsusi bir düsturunun, xüsusi bir reseptinin olmadığı düşüncəsindəyəm. Güman edirəm ki, bu uğura imza atan yaponlar öz yaşayışlarını düzgün təşkil etməyi bacarıblar. Düzgün iş şəraiti, düzgün qidalanma, steril həyat tərzi onları bu məqama gətirib.

60 yaşdan yuxarı yaşlı, qoca, uzunömürlü adamların həyat və fəaliyyətini öyrənən gerantologiya adlı bir elm sahəsi də var. Gerantologiya qocalmanın psixoloji və fiziki aspektlərini öyrənən elmdir və istənilən yaşda insan həyatının sağlam, fəal və pozitiv olmasına yardım edir. İndi bizim hər yarağımız bitib, bircə saqqal darağımız qalıb. Hər işimiz düzəlib, bir qalıb gerantoloqa müraciət etməmiz. Bizim insanımız yaşlanana qədər özünə həm mənəvi, həm fiziki cəhətdən elə zülm edir ki, yaşlandıqdan sonra yüz gerantoloq da yığılsa onun sıradan çıxmış orqanlarını yenidən həyata qaytarmaqda aciz qalır.

Yaponlarla bəhsə girə biləcək hollandlar arasında da uzun ömür sürənlərin sayı yetərincədir. 80-90 yaşlı holland qadın və ya kişinin heç kimin köməyi olmadan velosipedə minib-düşməsi, sərbəst şəkildə velosipedi, elə özünü də idarə etməsi yalnız qibtə doğurur. Bizim həmin yaşda olanlarımız velosipedə minib-düşmək bir yana, heç özlərini idarə edə bilmirlər. Düşünürəm ki, hollandların uzunömürlülüyə, fəal həyata nail olmaları da yaponlar kimi, sağlam həyat tərzindən, düzgün qidalanmadan qaynaqlanır.

Gerantoloji xidmətdən istifadə edənlərimizin sayı barmaqla göstəriləcək qədər olsa da, gerantologiyanın qocalmanın müxtəlif yönlərini öyrənən bir neçə sahəsi barədə qısa məlumat verim ki, bəlkə kiməsə gərək oldu.

Geriatriya yaşlı və qocalara xas olan xəstəlikləri öyrənməklə məşğuldur. Gerogigiyena qocalara qayğı və xidmət sahəsinə baxır. Yaşlılarda maddələr mübadiləsi zəifləyir, hüceyrələr yenilənmir, regenerasiya da yavaşlayır. Bütün bunlar isə xüsusi, diqqətli qulluq və gigiyenik prosedur tələb edir. Qocalma insanda spesifik psixoloji əlamətlər yaradır, xarakterdə dəyişiklik və yeni xüsusiyyətlər yaranır. Bunlarla gerentopsixologiya məşğul olur.

Qocalma prosesində insanda yeni xəstəliklər yaranır və bu xəstəliklər yaşlılar arasında geniş yayılır. Bu xəstəliklərə alsqaymer, parkinson, demensiya, hemorragik insult, dağınıq skleroz, qocalıq aqressiyası və yaşla bağlı digər psixi pozuntular daxildir.

Yaşlı pasiyentlərin normal reabilitasiyası özünəxidmət vərdişlərinə qayıtmağa imkan verir, nitqi, yaddaşı bərpa edir, müstəqil hərəkət etməyi, gigiyenik prosedurları həyata keçirməyi, qida qəbulunu və təmiz havada gəzməyi təmin edir.

Əgər ömür yolunu qəfil, ekstremal bir hadisə – qəza, təbii fəlakət, qətl, müharibə, yolxucu və ölümcül xəstəlik kəsməsə, hər bir insanın qocalma şansı mütləq var. Məhz qocaldıqda, ömrün qürub çağında insan keçib gəldiyi həyat yoluna bu və ya digər şəkildə nəzər salmaq imkanı qazanır. Nəyi yaxşı, nəyi pis etdiyini, hansı məqamda savab qazandığını, hansı nöqtədə günaha batdığını sərf-nəzər eməyə gen-bol vaxt tapa bilir.

Bütün bunlara nail olmaq üçünsə insanın sağlam həyat tərzi keçirməsi mütləqdir. İnsanın sağlam həyat tərzi keçirməsi üçünsə sosial-iqtisadi şərtlərin olması vacibdir.

Bu barədə sizin nə düşündüyünüzü də bilsəydim heç dərdim olmazdı.

**Afiq MUXTAROĞLU**

# BALIQ, QU QUŞU VƏ XƏRÇƏNG



Bu gün hamının marağında olan Avropada mənim xoşuma gələn bircə xüsusiyyət var. Böyük hərflərlə deyirəm: VƏSSALAM.

Mənim üçün Gürcüstan və Azərbaycan dünyanın ən gözəl məkanıdır. Təəssüf ki, bir ayıbı var, bax, bu ayıbla Avropaya qibtə edirəm: bizlər bir-birimizlə çəkişirik və çəkişərkən də məqsədimizi unuduruq.

Krılovun “Balıq, xərçəng və qu quşu” təmsilini məktəb illərindən hamımız bilirik. Faciəmiz odur ki, hələ uşaqlıqdan bilirik: araba ona görə tərpənmədi ki, hərə bir tərəfə çəkdi. Üçü də eyni tərəfə çəksə arabanı apara bilərdilər. Axı biz bunu uşaqalıqdan bilirik. Bəs niyə böyüdük başladıq özümüz də o səhvi etməyə. Niyə?..

Məktəbdə bir nağıl da vardı: “Güc birlikdədir”. Nar çubuqları yadınızdadırmı? – Baba uşağa onu tək-tək sındırmağı təklif etdi, uşaq sındırdı, amma dəstə halında gücü çatmadı. Vallah, billah, hamımız xorla təsdiq etmişdik ki, güc birlikdədir. Bəs nə oldu bizim uşaqlıqdakı təfəkkürümüz, məntiqimiz?

Bax, elə indicə tamlığıyla dərk etdim ki, niyə uşaqlara saf, müqəddəs varlıq deyirlər. Deməli, onlar həyatı olduğu kimi görürlərmiş – kin, paxıllıq, xəbislik olmayan dünyaları ilə. Böyüdülər oldular həyatın özü...

Deməli, biz məişətimizdən başqa Vətənimizin də arabasını tərpənməyə qoymayacaq qədər yazıq və qəddarıq. Yox, inciməyin, həm yazıq, həm də qəddar. Yazığıq ona görə ki, uşaqlıqdakı o saflığımızı itirdik. Qəddarıq ona görə ki, tək bu günü düşünürük, yalnız özümüzü düşünürük. Məndən ötdü düşüncəsiylə yaşayırıq...

İnanın o qədər sağlam düşüncəli gənclərimiz var, təəssüf ki, müxtəlif istiqamətlərə yönəliblər. Təhsildən, intellektdən, ictimai dünya görüşündən aldıqları gücü, enerjini müxtəlif toplumlarda itirirlər. Paralanmış güc isə istifadəyə yararsız şəkildə toplumda itib batır.

Olmazmı bir istiqamətə yönəlsinlər. Bütün enerji də orada işıqlanaraq eyni güc üstə güc gəlsin. Gənclərin bir təşkilatı ola, eyni amal uğrunda birləşsək qəbahətmi olar? Nəyə görə bir nəfər liderliyə can atmaqla rəqabətə başlayır, gənclərə birləşmək əvəzinə onları bölür. Bax, gənclərdəki bu fikir ayrılıqları Vətənin sabahına atılan daşdır!

İstəyirəm səbəbi də açıqlayam, əlbəttə, anladığım qədərində.

Xərçəng də, balıq da, qu quşu da suda yaşasalar da xislətləri fərqlidir. O xislət qoymadı ki, üçü birləşib arabanı götürsünlər. Onların uşaqlığı olmayıb. Əqrəb onsuz da tısbağanı sancacaq, dost olsa da. Axı biz Şüurlu insan növünü təmsil edirik. Biz ağı qaradan seçəcək təfəkkürə malikik. Biz bilməliyik ki, arabanı hamımız eyni tərəfə çəkəndə araba gedəcək. Biz həm də bilirik ki, nar çubuqlarının dəstəsini heç kim qıra bilməz. Biz beləcə dəstələrə bölünməklə nar da olsaq tək tək sınacağıq.

Hər addımı yenidən başlamaq üçün heç nə heç vaxt gec deyil – neçə ki arabamız batmayıb, neçə ki çubuğumuz sınmayıb.

Məndən ötdü düşüncəsi ilə bu günümüzün atdığı daş sabaha dəyəcək, özü də get-gedə daha da ağırlaşan daşlar!

P.S.

Yəqin Məmməd Arazın bu şeirini də hamımız kövrələrək dinləmişik:

*Səndən ötən mənə dəydi,*
*Məndən ötən sənə dəydi.*
*Səndən, məndən ötən zərbə*
*Vətən, vətən, sənə dəydi...*

**Esmira ƏLƏKBƏRLİ**

*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

## GÜRCÜSTANIN ƏRZAQ TƏCHİZATI VƏ KƏND TƏSƏRRÜFATINDAKI PROBLEMLƏRİ



Gürcüstan, zəngin təbiəti və əlverişli iqlim şəraitinə baxmayaraq, təəsüf ki, illik ərzaq tələbatını tam ödəyə bilmir. Ölkə kənd təsərrüfatı sahəsində mövcud potensialından tam istifadə edə bilmədiyi üçün ərzaq məhsullarının əhəmiyyətli hissəsini xaricdən idxal edir. Bu vəziyyət Gürcüstanın ərzaq təhlükəsizliyində xarici bazarlardan, xüsusilə də Türkiyə və Rusiyadan asılı vəziyyətdə qalmasına və yerli iqtisadi inkişafın məhdudlanmasına səbəb olur.

Ölkənin kənd təsərrüfatı statistikalarına görə, Gürcüstanın ümumi kənd təsərrüfatı məhsulları istehsalı əhalinin ehtiyaclarını tam ödəmək üçün kifayət deyil. Ölkədə istehsal olunan əsas ərzaq məhsulları arasında taxıl, tərəvəz, meyvə və süd məhsulları mövcuddur. Lakin əhalinin artan tələbatını nəzərə aldıqda, yerli istehsal hələ də kifayət qədər genişlənməyib. Məsələn, 2023-cü ilin taxıl məhsulları üzrə istehsal ümumi daxili tələbatın təxminən 60-70 %-ni qarşılaya bilir. Qalan hissə isə idxal vasitəsilə təmin edilir ki, bu da həm yerli istehsalçılar, həm də istehlakçılar üçün qiymət artımı və xarici bazarlardan asılılıq yaradır.

Gürcüstan kənd təsərrüfatının inkişafı üçün müəyyən addımlar atsa da bunlar ölkənin ərzaq tələbatını ödəmək üçün kifayət deyil. Əsas səbəblərdən biri, yerli istehsalın yüksək xərclərlə başa gəlməsidir. Gürcüstanlı fermerlər əkinçilik texnologiyaları, keyfiyyətli toxum, gübrə və suvarma sistemləri kimi əsas təchizatlara çıxışda çətinliklərlə üzləşirlər. Nəticədə, yerli kənd təsərrüfatı məhsullarının maya dəyəri yüksəlir və bu məhsullar xaricdən idxal olunan məhsullarla müqayisədə daha baha olur. Fermerler buna görə ya başqa təsərrüfat sahəsinə keçir və ya gəlirin az olması səbəbiylə ümumiyyətlə təsərrüffat sahəsini tərk edirlər.

Bundan başqa, Gürcüstanda kənd təsərrüfatı infrastrukturunun kifayət qədər inkişaf etməməsi də əhəmiyyətli bir problemdir. Məhsulun daşınması, saxlanılması və satışa çıxarılması üçün lazımi infrastrukturun zəif olması məhsul itkilərinə səbəb olur və kənd təsərrüfatı sektorunu daha az cəlbedici sektor edir. Bu şərtlər altında fermerlər iqtisadi baxımdan davamlı olmayan şəraitdə fəaliyyət göstərməyə çalışır və gəlirlərini artırmaqda çətinlik çəkirlər.

Gürcüstanın ərzaq tələbatını ödəyə bilməsi və kənd təsərrüfatı sektorunu gücləndirə bilməsi üçün bir neçə mühüm tədbirin görülməsi vacibdir. İlk növbədə, fermerlər üçün təchizat və texnologiyaların daha əlçatan edilməsi məqsədilə dövlət dəstəyi artırılmalıdır. Bu, keyfiyyətli toxum və gübrələrin daha münasib qiymətlərlə təmin edilməsi və müasir suvarma sistemlərinin inkişaf etdirilməsi ilə həyata keçirilə bilər. Fermerləri öz məhsullarını yerli bazara çıxarmağa həvəsləndirmək üçün subsidiyaların həcmi artırılmalıdır. Belə bir dəstək yerli fermerlərin daha məhsuldar işləməsinə və məhsulların maya dəyərinin azalmasına kömək edər.

Bununla yanaşı, kənd təsərrüfatı infrastrukturunun təkmilləşdirilməsi də mühüm rol oynayır.

Anbar və soyuducu təsislər, habelə məhsulun daşınması və emalı üçün infrastrukturun gücləndirilməsi məhsul itkilərini azaltmağa və daha çox məhsulun daxili bazara çıxarılmasına imkan verər. Bu istiqamətdə dövlət və özəl sektor arasında əməkdaşlıq inkişafı sürətləndirmək üçün əhəmiyyətli addım ola bilər.

Hazırda Gürcüstanın işçi qüvvəsinin 8,2 %-i kənd təsərüffatında çalışır və bu rəqəmlər hər gün getdikcə azalmaqdadır. Fermerlərlə yanaşı bu sahəyə maraq göstərən gənclərin sayının da azalması kənd təsərüffatını ciddi təhlükəyə atır.

Yerli kənd təsərrüfatı sektorunun inkişafı Gürcüstan iqtisadiyyatına geniş təsir göstərə bilər. Ölkə öz ərzaq tələbatını ödəməyə başladıqdan sonra iqtisadiyyat daha dayanıqlı və rəqabət qabiliyyətli olacaq. Gürcüstanın daxili ərzaq təminatını ödəməklə qlobal iqtisadi çalxalanmalardan və idxal qiymətlərindən asılılığı azalacaq. Yerli bazarın tələbatını tam ödədikdən sonra artıq istehsal olunan məhsulu ixrac etmək potensialı da mümkündür. 2023-cü ilin idxal-ixrac göstəricilərinə baxdıqda görürük ki, Gürcüstanın xaricə ixrac etdiyi malların ümumi dəyəri 6,09 milyard ABŞ dollarıdırsa, ixdal edilən malların dəyəri 15,43 milyard ABŞ dollarına bərabərdir. Bu isə öz növbəsində 2 dəfədən çox mənfi saldo yaradır.

Əgər ən azından gündəlik qida məhsullarının idxal miqdarını yerli məhsullar hesabına azalda bilsək bu, milli iqtisadiyyatı daha sabit və güclü edəcəkdir.

Ümid edək ki, Gürcüstanın ərzaq təhlükəsizliyi və kənd təsərrüfatı sektorunun gücləndirilməsi üçün atılacaq addımlar yalnız ərzaq təminatına deyil, eyni zamanda ölkənin iqtisadiyyatının bütövlükdə inkişafına xidmət edəcəkdir. Yerli istehsalın artırılması, idxal asılılığının azaldılması və daxili bazarın tələbatının qarşılanması Gürcüstanı ərzaq təhlükəsizliyi baxımından daha güclü və özünə yetərli bir ölkə halına gətirəcəkdir.

**Səlahəddin PİRİYEV**
*İqtisadçı*

## VALİDEYN SEVGİSİ



İndiki zamanda analar uşaq ağlayanda, nəsə istəyəndə telefonda cizgi filmləri qurub uşağa verirlər, özləri də öz işlərində olurlar. Yazıq uşaqlar bütün günü sussun deyə qəribə animasiyalara baxmalı olurlar. Bəs o uşağın sevgi ehtiyacı?..

Uşaqlara işim var deyib keçirsiniz və elə bilirsiniz ki, yeməyi qabağında, əynində paltarı, daha nə istəməlidir? Lakin bu tamamilə səhv düşüncədir. Sizin etdiyinizin dövlətin yetimxanalarda etdiyindən fərqi yoxdur. Siz uşağa ana, ata sevgisi verməsəniz uşaq üçün valideynlərin olub-olmamasının nə fərqi var? Beləliklə, zamanla uşaqlar sizə qarşı yaxınlıq hiss etmir. Daxilən yadlaşır.

Bəzi ailələr uşaqlarını belə böyütdükləri yetmir, onları gənc yaşlarında evləndirirlər. Valideyn borcu kimi bir-iki cehiz verib başlarından edirlər. Elə bil heç öz uşaqları deyil. Beləcə, arzuları, istəkləri, savadı puç olan uşaqlar gənc yaşda ailə, uşaq sahibi olurlar. Evlilikdən sonra oxuma şanslarını itirən uşaqlar savadsız qalırlar. Həyatları sadəcə bundan ibarət olur: doğuldu, bağçaya getdi, məktəbə başladı, məktəbi bitirib evləndi, bəzən də ailəsini dolandırmaq üçün iş axtardı və ya bütün günü evdə ya ev işləri, ya da uşaqla məşğul olaraq ömrünü başa vurdu...

Sonra da niyə savadlı uşaqlar böyümür deyə soruşurlar.

Valideynlərin uşaqlara ən böyük zərbələrindən biri də ailədəki dava-dalaşdır ki, uşaqların gözü qarşısında baş verir. Uşaqdır, başa düşməz dedikləri övladlarının nə çəkdiyini isə heç vaxt bilmirlər. Bəzən elə hadisələr olur ki, uşaqlar onu heç vaxt unutmurlar, tez-tez xatırlamaqla əzablarını artırırlar, bəzən böyüyəndə eynisini təkrar edirlər. Bu, valideynin uşağa vurduğu ən böyük psixoloji zərbədir. Bu zərbə günlərlə ac, susuz qalmaqdan çox ağırdır. Kaş valideynlər mübahisələri, ailə problemlərini uşaqlardan kənarda edəydilər...

Uşaqların yalnız sevgiyə ehtiyacı var. O sevgi hər şeydən üstündür!

Bəlkə də mən şanslıyam. Ona görə ki, ailəm mənim üçün bacardığı hər şeyi edir. Onlar mənim üçün çalışdıqca mən daha da yaxşı olmağa can atıram. İstəyirəm oxuyam, həyatda kimsə olam, öz ayağım üstə dayanam. Qoy anam, atam heç vaxt peşiman olmasın. Əməyimizi itirmədi deyə fəxr etsinlər.

Ailəm məni sevir, sevərək qayğımı çəkir, həm də bir güvən verir. O güvən o qədər böyükdür ki, məni səhv etməməyə, daha məsuliyyətli olmağa həvəsləndirir.

Mənə elə gəlir ki, quşlar balasını uçmağa öyrətmək üçün budaqdan uçurdanda bala quş anasına olan güvəni, sevgisiylə uçur, yıxılmır. Kaş bütün valideynlər də quşlar kimi düşünə biləydi.

**Banu RAMİN**
*Marneuli rayonu Qacağan 1 saylı ictimai məktəbin 8-ci sinif şagirdi*

# AĞA MƏHƏMMƏD ŞAH QACARIN TİFLİS ŞƏHƏRİNƏ HÜCUMU

**ALEKSANDRE ORBELİANİ**



**Gürcü şair, nasir, dramaturq, publisist, tarixçi, gürcü romantiklərin böyük nəslinin nümayəndəsi, çar II İraklinin nəvəsi, şahzadə Teklenin oğlu Aleksandre Orbeliani (Cambakur-Orbeliani) 1802-ci il mayın 24-də anadan olmuşdur.**

**Aleksandre Tiflis nəcib kişilər məktəbində, sonra Peterburq Hərbi Məktəbində təhsil alıb. 1828-ci ildə Tiflis qəzasının tavad-aznaurluğunun rəhbəri seçilib. Aleksandre İrana və Osmanlıya qarşı mübarizələrdə iştirak edib. 1829-cu ildə quberniya idarəsində müşavir işləyib. O, 1832-ci il sui-qəsdinin rəhbərlərindən və təşkilatçılarından biri olub ki, buna görə də həbs edilib və Orenburqa sürgün edilib.**

**1840-cı ildə Vətənə qayıdan kimi ictimai həyata qaynayıb-qarışıb. "Siskari" ("Dan ulduzu") jurnalının bərpasında iştirak edib, jurnalda öz əsərlərini dərc etdirib. Gürcü teatrının dirçəlişi, jurnal-qəzetlərin təsis olunması, məktəblərin açılması qayğısına qalıb.**

**Aleksandre Orbeliani şeirlər, hekayələr, dramlar, memuarlar və publisist yazıların müəllifidir. Onun "Mtovare" ("Qəmər", "Ay") adlı hekayəsi 1832-ci ildə "Tiflis çağırış vərəqələrində ədəbi hissələr" jurnalında çap olunub. Aleksandre yeni gürcü poeziyasında sərbəst şeirin ilk müəlliflərindən biri olub. Onun kifayət qədər rəngarəng ədəbi irsi tematik olaraq, demək olar ki, bir məsələ ilə, yəni gürcülərin "yenilmiş şəxsiyyətini" aydınlaşdırmaqla bağlıdır. Yazıçının baxışı Gürcüstanın keçmişinə doğru yönəlmişdir. Keçmişi ideallaşdırmaq, onun böyüklüyünü göstərmək Aleksandrenin əsas məqsədi idi.**

**Aleksandre Orbelianinin "Xatirələr" əsəri, burada yazıçının Gürcüstandakı müasir vəziyyəti, o dövrün ictimai həyatını xarakterizə edən mənzərələr və "İberiyalıların kilsə nəğmələri, mahnıları və zümzüməsi " etnoqrafik əsəri diqqətəlayiqdir. 1860-cı illərin əvvəllərində o, vahid ədəbi dilin yaradılmasının tərəfdarı olub və köhnə gürcü ədəbi dilinin bərpasını, ondan müasir yazının inkişafı üçün əsas kimi istifadə olunmasını tələb edib.**

**Aleksandre Orbelianinin tarixi əsərləri arasında "Gürcüstanda 1829-cu il iğtişaşları", "Gürcüstan çarı İraklinin oğlu Levan", "Dağıstandan ləzgilərin Gürcüstana köçü", "Gürcüstanda çar II İrakliyə əhd", "Xatirələr", "Ağa Məhəmməd şah Qacarın Tiflis şəhərinə hücumu" kimi əsərlərini qeyd etmək lazımdır. Bu sonuncu əsərdə, doğrudur, bəzi ənənəviliklə, lakin diqqətəlayiq faktları göstərməklə Krtsanis döyüşü və o dövrkü Şərqi Gürcüstandakı siyasi vəziyyət təsvir edilib.**

**Aleksandre Vaxtanq oğlu Cambakur-Orbeliani 1869-cu ildə vəfat etmişdir.**

***"Yeni Yol" qəzeti Mirzə Məmmədoğlunun tərcüməsində Aleksandre Orbelianinin "Ağa Məhəmməd şah Qacarın Tiflis şəhərinə hücumu*" əsərini oxucuların diqqətinə çatdırır.***

## Giriş

*Aleksandre Vaxtanq oğlu Cambakur Orbelianinin "Ağa Məhəmməd şah Qacarın Tiflis şəhərinə hücumu" əsəri yarım vərəqli dəftəri əhatə edir ki, onun da 43 səhifəsi var və karandaşla yazılıb, lakin aydın və gözəl şəkildə. Bu dəftər mərhumun kağız qovluqları arasından üzərə çıxdı ki, bunu da biz müzakirə etdik və knyaginya Maryam Vaxtanq qızı Canbakur Orbelianinin icazəsi ilə digər ianə edilmiş kitablar, fərman-namələrlə birlikdə Yazmaq, Oxumaq Cəmiyyətinin kitab anbarına təhvil verdik. Məqalə 1844-cü ildə yazılıb. Sonra isə Aleksandre Orbeliani şahzadə Teymurazın "Ağa Məhəmməd şah Qacarın Tiflis şəhərinə hücumu" əsərini oxuyanda müəllif "Giriş" sözünü yazır ki, burada da o, Teymurazın əsərinə və orada gətirilən olayların həqiqiliyinə toxunur. "Giriş" 1850-ci ildə yarım vərəqli kağızda karandaşla yazılıb. A.Orbelianinin əsəri əksər hallarda çağdaş şəxslərin söylədikləri əsasında qurulmuşdur. Onlar arasında çar II İraklinin qızı, bizim əsərin müəllifinin anası şahzadə Tekle də vardır. Bu məqalədə dərc olunan qeydlər müəllifin özünə məxsusdur. Bu məqalənin nəşr olunmasının bu dəfə nə qədər lazımlı olduğunu gördük, çünki 1895-ci il sentyabrın onu ilk dəfə Ağa Məhəmməd şah Qacarın Tiflisə hücumunun bir əsri tamam olur. Həmin ayın on birində bizim paytaxt şəhərimizi viran etdi. Ağa Məhəmməd şah Qacar tərəfindən Tiflisin viran edilməsi Gürcüstanı lərzəyə saldı ki, bundan sonra da Gürcüstan qamətini düzəldə bilmədi. Hələ yenə də çox şey müəyyən olunmamışdır. İraklinin çarlığı dövründə gürcülərin Ağa Məhəmməd şah Qacar kimi düşmənləri dəfələrlə məğlubiyyətə uğratdığı bir vaxtda Ağa Məhəmməd şah Qacarın hərəkətə keçməsinin, onun qəflətən gəlməsinin və gürcülərin bu müharibədə məğlubiyyətinin səbəbi nə idi. Amma bu da məlumdur ki, daxili düşmənlər Ağa Məhəmməd şah Qacarın gəlməsində və onun qələbəsində böyük yer tutmuşlar. O bir dəstə gürcülər (70000 nəfərlik farsların qoşununa qarşı cəmi 2700 nəfər gürcü var idi) döyüş üçün düşmənin qarşısına çıxırlar, elə bir görünməmiş şücaət və qəhrəmanlıq göstərirlər ki, qəddar, amansız düşmənin özü də deyir ki, belə bir fədakarlıq və qəhrəmanlıq görməmişdik. Gürcülərin nə qədər igidlik göstərməsi oradan da görünür ki, onlar farsların ön qoşununu tamamilə məğlubiyyətə uğratdılar və Ağa Məhəmməd şah Qacar geri çəkilmək qərarına gəldi. Lakin Gəncə xanı onu əmin etdi ki, gürcülərin cəmi bir ovuc qoşunu var və şəhərin sakinləri onu tərk edirlər. O biri gün gürcülər farsları geri oturtdular və Ağa Məhəmməd şah Qacarın gözü önündə onların bayrağını əllərindən aldılar. Sonra farsların bütün qoşunu hər tərəfdən Tiflisin üstünü aldıranda farslar üç dəfə gürcülər tərəfindən geri çəkildilər. Bu qeyri-mütənasib müharibədə gürcülərin qoşununun əksər hissəsi həlak olanda farsların şəhərə soxulmasına yol açıldı. Lakin çar İrakli kişi döyüş meydanından uzaqlaşa bilmədi. O sanki, hiss etdi ki, Gürcüstanın sonu yetişib. Onun şəxsən şir kimi coşması, fədakarlığı daha bir şeyə yaramayanda düşmənin içərilərinə doğru cumdu və orada əldə qılınc düşmənə divan tutmağa başladı. Gürcüstan uğrunda özünü fəda etmək istədiyi aydın idi, lakin şahzadə İoane buna imkan vermədi. Üç yüz nəfərlə özünü İraklinin yanına yetirdi, fədakarlıqla düşmənləri dəf etdi və onu güc-bəla ilə döyüş meydanından çıxartdı. Digərləri isə orada düşmənlərlə mübarizəyə girişdilər və özlərini qəhrəmancasına qurban verdilər. Bu qəhrəmanların ruhunu yüz ildən sonra dua ilə yad etsək artıq olmaz.

***E.Tağaişvili***

*(davamı növbəti sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 OKTYABR 2024-CÜ İL № 18 (213)

Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# GÜRCÜSTANIN MDB ÖLKƏLƏRİ İLƏ TİCARƏTİ SON 10 İLİN MAKSİMUM SƏVİYYƏSİNDƏDİR



Gürcüstanın MDB ölkələri ilə ticarət dövriyyəsi son 10 ilin (9 aylıq dövr) tarixi maksimumuna çatıb. Gürcüstan Statistika Xidmətinin məlumatlarına əsasən, 2024-cü ilin yanvar-sentyabr aylarında ticarət dövriyyəsi 5,68 milyard dolları keçib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 3,8 %, 2014-cü ilin eyni dövrü ilə müqayisədə isə 117 % artım deməkdir.

Bununla yanaşı, cari ilin 9 ayında Gürcüstana MDB-dən 2,359 milyard dollar dəyərində məhsul idxal olunub ki, bu da son 10 il ərzində yalnız 2022-2023-cü illərin göstəricilərindən aşağıdır.

***Bu il MDB ölkələrindən idxal olunan 5 əsas məhsul bunlardır:***

- Neft və neft məhsulları – 591,8 milyon ABŞ dolları;
- Neft qazları və qaz halında olan karbohidrogenlər – 275 milyon ABŞ dolları;
- Karbonlu polad borular – 77,3 milyon ABŞ dolları;
- Buğda və meslin – 52,19 milyon ABŞ dolları;
- Qutular və butulkalar – 49,39 milyon ABŞ dolları.

Bundan əlavə, məlumatlar göstərir ki, MDB ölkələri ilə ixrac son 10 ilin tarixi maksimum səviyyəsindədir. Məsələn, cari ilin yanvar-sentyabr aylarında 3,32 milyard ABŞ dolları dəyərində məhsul ixrac olunub ki, bu da illik 8,9 % artım deməkdir.

***Hesabat dövründə Gürcüstandan MDB ölkələrinə aşağıdakı 5 əsas məhsulun reeksportu həyata keçirilib:***

- Minik avtomobilləri – 1,73 milyard ABŞ dolları;
- Etanol spirti, 80 %-dən az spirt konsentrasiyası, spirtli içkilər – 105 milyon ABŞ dolları;
- Dərman vasitələri – 67,2 milyon ABŞ dolları;
- Tütün məmulatları – 45,8 milyon ABŞ dolları;
- Yük avtomobilləri – 42,7 milyon ABŞ dolları.

Baxmayaraq ki, Gürcüstan məhsullarının ixracı da tarixi maksimuma çatıb, cari il ixracın payı cəmi 24,6 % olub, qalanı isə reeksporta aiddir. 2024-cü ildə MDB ölkələrinə 818 milyon dollar dəyərində gürcü məhsulunun ixracı həyata keçirilib.

***Gürcüstanın MDB ölkələrinə ixrac etdiyi 5 əsas məhsul isə bunlardır:***

- Təbii üzüm şərabları – 170 milyon ABŞ dolları;
- Mineral və təmiz sular – 113 milyon ABŞ dolları;
- Mineral və qazlı sular da daxil olmaqla, şəkər əlavə tərkibli sular – 101 milyon ABŞ dolları;
- Etanol spirti, 80 %-dən az spirt konsentrasiyası, spirtli içkilər – 79 milyon ABŞ dolları;
- Ərik, albalı, gilas, şaftalı, gavalı və bağ göyəmi – 33 milyon ABŞ dolları.

*Mənbə: bpn.ge*

# ANAKLİYA LİMANININ TİKİNTİSİNƏ BAŞLANILIB



Gürcüstan üçün strateji əhəmiyyət kəsb edən layihənin – Anakliya şəhərində dərinsulu dəniz limanının tikintisinə başlanılıb. Bu barədə Gürcüstanın Baş naziri İrakli Kobaxidze bildirib.

***"Bu gün ölkəmiz üçün çox böyük strateji əhəmiyyət kəsb edən layihənin – Anakliya dərinsulu limanının tikintisinin başlanmasını qeyd edirik. Limanın dəniz infrastrukturunun layihələndirilməsi və tikintisi üzrə tenderin qalibi olmuş Belçikanın "Jan De Nul" şirkəti, plana uyğun olaraq, artıq sentyabrın 16-da işə başlayıb. Bu liman ölkənin liman infrastrukturunun inkişafında, eləcə də infrastrukturun təkmilləşdirilməsində və Avropa və Asiyanın nəqliyyat sistemlərini birləşdirən Orta Dəhlizin rəqabət qabiliyyətinin artırılmasında mühüm rol oynayacaq",*** – deyə Baş nazir açılış mərasimindəki çıxışı zamanı bildirib.

Kobaxidzenin sözlərinə görə, birinci mərhələdə dəniz limanının akvatoriyasının dərinləşdirilməsi planlaşdırılır və intensiv işlər nəticəsində artıq irəliləyiş əldə olunub.

***"Liman layihəsi üçün özəl tərəfdaşın seçilməsi prosesinə gəlincə, indiki mərhələdə Çin-Sinqapur konsorsiumu ilə təqdim olunmuş təklifin təfərrüatları dəqiqləşdirilir, bundan sonra yaxın vaxtlarda tərəfdaşlıq müqaviləsi imzalanacaq",*** – Baş nazir deyib.

Onun sözlərinə görə, layihənin birinci mərhələsində tikinti və logistika işlərində 500-ə qədər insan işlə təmin olunacaq. Limanın ötürmə qabiliyyəti layihənin birinci mərhələsinin həyata keçirilməsi ilə 600 min konteyner, təxmini investisiya dəyəri isə 600 milyon ABŞ dolları təşkil edəcək.

# HÖKUMƏT STRATEJİ OBYEKT STATUSUNA MALİK İNZİBATİ BİNALARIN SİYAHISINI TƏSDİQLƏYİB

Gürcüstan hökuməti bloklanması cinayət məsuliyyətinə səbəb ola biləcək strateji obyekt statusuna malik inzibati binaların siyahısını təsdiqləyib. Bu barədə Baş nazir İrakli Kobaxidze qərar imzalayıb.

Qərara əsasən, strateji obyektlərin ələ keçirilməsi və ya bloklanması 4 ilə qədər həbslə cəzalandırılır, terror hərəkətləri halında isə bu cəza 10 ildən 15 ilə qədərdir.

***Strateji obyektlərə aşağıdakılar daxildir:***

- Gürcüstan parlamenti;
- Acarıstanın Ali Şurası;
- Nazirliklər;
- Yerli özünüidarə orqanları;
- Məhkəmələr və prokurorluq;
- Dövlət Təhlükəsizlik Xidməti və Kəşfiyyat Xidməti;
- Gürcüstan Milli Bankı;
- Səfirliklər və konsulluqlar;
- Gürcüstanın Mərkəzi Seçki Komissiyası;
- Gürcüstan Patriarxiyası;
- Dövlət sərhəd keçid məntəqələri;
- Enerji və su təchizatı ilə əlaqəli obyektlər;
- Tibb müəssisələri, televiziya və radio şirkətlərinin binaları;
- Limanlar, dəmir yolları, metro və hava limanları.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor: Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.